# Masallıda şəhidə həsr edilmiş "Dan yerinin sübhü" adlı kitabın təqdimatı olub

**Masallı şəhər Nizami Gəncəvi adına Mədəniyyət Mərkəzində rayon icra hakimiyyəti və Lənkəran-Astara Regional Mədəniyyət İdarəsinin Masallı yət İdarəsinin Masallı üzrə Mədəniyyət sektorunun birgə təşkilatçılığı ilə Pərvanə Ziyadovanın şəhid Sübhan Həsənova həsr etdiyi "Dan yerinin sübhü" adlı kitabının təqdimat mərasimi keçirilib.**



Tədbirdə rayonun rəhbərliyi, idarə, müəssisə, təşkilatların nümayəndələri, şəhid ailələri və müharibə veteranları iştirak ediblər.

Çıxış edən Masallı RİH-nin başçısı A.Əhmədov müəllifə şəhid adını uca tutduğu üçün təşəkkürünü bildirərək, Azərbaycanın qəhrəmanlıq salnaməsini yazan igidlərin şücaətindən bəhs edib. Sonra kitabın müəllifi P.Ziyadova şəhid Sübhan Həsənova həsr olunmuş kitab barədə ətraflı məlumat verib.

Tədbirdə çıxış edən şəhidin anası Ülkər Həsənova, şəhid atası Teymur Hüseynov, şəhidin döyüş yoldaşı Ceyhun Şiriyev və iş adamı Abdulla Abdullayev Sübhan Həsənovla bağlı xatirələrini bölüşüblər.

Sonda şəhidin bacısı oğlu Tunar Dadaşovun təqdimatında şəhidlərə həsr olunmuş şeir səsləndirilib, Masallı Dövlət Regional Kollecinin tələbələrinin və Masallı şəhər 5 saylı tam orta ümumtəhsil məktəbindən olan şagirdlərin təqdimatında kompozisiyalar təqdim edilib.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

---

Azərbaycan.- 2025.- 2 dekabr (№254) - S.8.